# Yoxlama-ölçmə materiallarının işlənməsi şöbəsi tərəfindən 2019-cu ildə görülmüş işlər barəsində hesabat

DİM-in ən böyük struktur bölməsi olan Yoxlama-ölçmə materiallarının işlənməsi şöbəsi altı sektordan ibarətdir. Mərkəzin keçirdiyi bütün imtahanlarda - ümumi təhsil pilləsində təhsilalanlrın yekun qiymətləndirilməsi imtahanlarında, orta ixtisas təhsili müəssisələrinə, ali təhsilin bakalavriat və magistratura (əsas (baza ali) tibb təhsili və rezidentura) səviyyələrinə, dövlət qulluğuna qəbul üçün test imtahanlarında istifadə olunan yoxlama-ölçmə materialları bu şöbədə hazırlanır.

Tələbə qəbulunda qarşıya qoyulan əsas məqsəd seçdiyi ixtisas üzrə ali və orta ixtisas təhsili müəssisələrində təhsilalma qabiliyyətinə malik olan namizədlərin seçilməsidir. Bu vəzifənin həyata keçirilməsi üçün istifadə edilən test tapşırıqları düzgün seçimetmə keyfiyyətinə malik olmalıdır. Məhz buna görə də şöbə tərəfindən biliyin qiymətləndirilməsi üzrə beynəlxalq təcrübəyə əsaslanmaqla test tapşırıqlarının həm məzmununda, həm tərtibində, həm də təqdimat formalarında təkmilləşdirmə işləri ardıcıl olaraq həyata keçirilir. Belə işlərdən biri də son illər qəbul imtahanlarında ayrı-ayrı fənlər üzrə testlərdə nəzəri biliklərin bilavasitə tətbiqinə aid test tapşırıqlarına daha çox üstünlük verilməsidir. 2019-cu ildə DİM tərəfindən keçirilən 50-dən artıq kağız və elektron formatlı imtahanda məhz belə tapşırıqlar əksəriyyət təşkil etmişdir.

Aşağıda şöbənin ayrı-ayrı sektorları üzrə 2019-cu ildə görülmüş işlər haqqında qısa hesabatlar təqdim olunur.

## Test bankı sektoru

1. 50-dən çox imtahan üçün test tapşırıqlarından ibarət kitabça və ya elektron formatlı imtahan materialları hazırlanmışdır. Bu materialların böyük bir hissəsi məxfi şəraitdə (qapalı rejimdə) işlənilmişdir.
2. 10 fənn üzrə test toplusu yenidən işlənərək fənn kurikulumlarına uyğunlaşdırılmış və çapa göndərilmişdir.
3. Təşkilat şöbəsi üçün “Nəzarətçi qeydiyyat sistemi” hazıranaraq təhvil verilmişdir. “Bina nümayəndələri, polislər və digər imtahan iştirakçılarının qeydiyyatı sistemi”nin isə hazırlanmasına başlanılmışdır.
4. Test bankı sistemi yeni imtahan modellərinə uyğunlaşdırılmış və daha da təkmilləşdirilmişdir.
5. 17000-dən çox test tapşırığının ekspertizası həyata keçirilmişdir. 15000-dən çox test tapşırığı qəbul edilərək bazaya daxil edilmişdir. 20000-dən çox test tapşırığının təkrar təftişi aparılmışdır.
6. Sektorun əməkdaşları müxtəlif növ imtahanların təşkilində, həmçinin dövlət qulluğuna qəbulun müsahibə mərhələsində iştirak etmişlər. Sektorun əməkdaşlarının hazırladıqları kağız və elektron formatlı imtahanların müqayisəsi ilə bağlı ingilis dilində məruzə Təhsilin Qiymətləndirilməsi üzrə Beynəlxalq Assosiasiyanın (IAEA) 45-ci illik konfransının sessiyasında dinlənilmişdir.

## Rezidentura üzrə sektor

Ötən illərdə olduğu kimi, 2019-cu il ərzində də Rezidentura üzrə sektorda əsasnaməyə uyğun olaraq test bankının təkmilləşdirilməsi və zənginləşdirilməsi sahəsində işlər aparılmışdır. Bununla yanaşı, hesabat ilində adları aşağıda çəkilən işlər də görülmüşdür:

1. Ötən illərdən fərqli olaraq hesabat ilində rezidenturaya hazırlaşanlara elmi-metodik kömək məqsədi ilə qəbul imtahanlarında namizədlərin cavablandırmaqda çətinlik çəkdikləri mövzular üzrə ATU-nun müvafiq kafedralarının əməkdaşları ilə birgə elmi məqalələr hazırlanaraq “Rezidentura” jurnalında dərc olunmuşdur;
2. Rezidenturaya hazırlaşanlara kömək məqsədi ilə baza fənləri üzrə rus dilində “Гистология (цитология, эмбриология, общая и частная гистология)”, “Патологическая

физиология", "Нормальная физиология", "Биологическая химия" adlı vəsaitlər nəşr edilmiş, "Анатомия человека" və "Patoloji fiziologiya" adlı vəsaitlər isə çap prosesindədir. "Патологическая анатомия" adlı vəsait İ.M.Seçenov adına Birinci MDTU-nin və ATU-nun müvafiq kafedralarının mütəxəssislərindən müsbət rəy almış, "Фармакология" adlı vəsait isə rəy üçün İ.M.Seçenov adına Birinci MDTU-nə göndərilmişdir.

3. 2016-cı ildə nəşr olunmuş "Bioloji kimya" adlı vəsait əlavə və dəyişikliklər edilərək təkmilləşdirilmişdir. Hazırda nəşrə hazırlanır.

4. Cari ildə də ixtisas fənləri üzrə rezidenturaya hazırlaşanlara kömək məqsədi ilə vəsaitlərin tərtibi prosesi davam etdirilmişdir. Terapevtik stomatologiya fənnindən hələ 2018-ci ildə nəşr edilmiş "Terapevtik stomatologiya (Parodont və oral mukoza xəstəlikləri)" adlı vəsaitin rus dilinə tərcüməsi üzərində son tamamlama işləri aparılır.

5. Baza fənləri üzrə nəşr olunmuş yuxarıda adları çəkilən vəsaitlərin ingilis dilinə tərcüməsi üçün işlərə başlanılmışdır.

6. İcbari tibbi sığortanın tətbiqinin təmin edilməsi məqsədi ilə İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin nəzdində "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" publik hüquqi şəxsin (TƏBİB) yaradılması haqqında verilmiş Fərmana müvafiq olaraq ilkin müzakirələr aparılmış və təkliflər hazırlanaraq TƏBİB-ə təqdim olunmuşdur;

7. Hesabat ilinin mart-dekabr ayları ərzində 50 elektron cavab məktubu ilə vətəndaşların müraciətinə cavab verilmişdir.

Rezidentura üzrə sektorun əməkdaşları 18-21 fevral 2019-cu ildə Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin təşəbbüsü ilə təşkil olunmuş "Tibb işçilərinin sertifikasiyası və rezidentlərin attestasiyası" üzrə təlimdə iştirak etmiş və "Azərbaycan Respublikasında rezidenturaya qəbulun təşkili" mövzusunda təqdimatla çıxış etmişlər. Təqdimat amerikalı mütəxəssislərdə böyük maraq doğurmuşdur. Təlimdə ABŞ-da rezidentura təhsili sistemi, komitə sertifikasiyası (Board certification), tibbi lisenziya və ixtisas təhsilinin tanınması sahəsində məruzələr dinlənilmiş və müzakirələr aparılmışdır.

Bununla yanaşı, sektorun əməkdaşları Dövlət İmtahan Mərkəzinin təşkilatçılığı ilə Təhsilin Qiymətləndirilməsi üzrə Beynəlxalq Assosiasiyanın Bakıda keçirilən 45-ci illik konfransında ingilis dilində rezidenturaya qəbulla bağlı təqdimatla çıxış etmişlər. Onlar DİM-in keçirdiyi müxtəlif tədbirlərdə və dövlət qulluğuna işə qəbulla bağlı müsahibələrdə iştirak etmişlər.

## Magistratura üzrə sektor

1. 2019-cu il ərzində Magistratura üzrə sektorda magistraturaya qəbul imtahanları üçün test banklarının təkmilləşdirilməsi və zənginləşdirilməsi sahəsində işlər aparılmışdır.

2. Bu il ilk dəfə olaraq magistraturaya qəbul imtahanının birinci mərhələsində bakalavrların xarici dillər üzrə dinləyib-anlama bacarıqlarının yoxlanılması məqsədi ilə altı xarici dil üzrə audiomateriallar və onların əsasında test tapşırıqları hazırlanmış və tətbiq edilmişdir. Materialların hazırlanmasına yerli mütəxəssislərlə yanaşı, dil daşıyıcısı olan əcnəbi mütəxəssislər də cəlb olunmuşlar.

3. İmtahanın ikinci mərhələsi 75 proqram üzrə qapalı və açıq formalı test tapşırıqları, esse yazısı, suallara yazılı cavab, yazılı tərcümə və qabiliyyət imtahanları şəklində keçirilmişdir.

4. Sektorun əməkdaşları DİM tərəfindən təşkil olunmuş tədbirlərdə, dövlət qulluğuna işə qəbulla bağlı müsahibələrdə, həmçinin xarici dillərin öyrənilmə səviyyəsinin qiymətləndirilməsi üzrə təlimlərdə fəal iştirak etmişlər. Sektorun əməkdaşları tərəfindən hazırlanmış magistraturaya qəbulla bağlı ingilis dilində məruzə Təhsilin Qiymətləndirilməsi üzrə Beynəlxalq Assosiasiyanın 45-ci illik konfransının sessiyasında maraqla qarşılanmışdır.

5. İmtahana hazırlaşan bakalavrlara kömək məqsədi ilə “Magistr” jurnalının 7 sayı hazırlanmış və onun səhifələrində magistraturaya qəbul imtahanına hazırlaşanlara kömək məqsədi ilə zəruri məlumatlar, elmi-metodik materiallar dərc edilmişdir.

6. İl ərzində sektorun *magistratura@dim.gov.az* elektron poçtuna daxil olmuş 3250-dən artıq məktub və müraciət operativ şəkildə cavablandırılmışdır.

7. Hazırda sektorun əməkdaşları tərəfindən magistraturaya qəbul və DİM-ə yeni həvalə olunmuş doktoranturaya xarici dillər üzrə qəbul imtahanları üçün yoxlama-ölçmə materiallarının hazırlanması üzrə intensiv hazırlıq işləri aparılır.

**Orta təhsil üzrə sektor**

1. Orta təhsil üzrə sektor tam və ümumi orta təhsil səviyyələri üzrə keçirilən bütün növ imtahanlarda istifadə edilən yoxlama-ölçmə materiallarının hazırlanmasını və ekspertizasını təşkil edir. Bundan başqa, sektorun əməkdaşları qeyd olunan təhsil səviyyələri üzrə buraxılış və qəbul imtahanlarında sual kitabçalarına daxil olan müxtəlif fənlər üzrə test tapşırıqlarının qapalı şəraitdə yoxlanılması və ekspertizası işini təşkil edirlər.

2. 2019-2020-ci tədris ili üçün buraxılış və qəbul imtahanlarının modelində edilən dəyişikliklərlə əlaqədar olaraq yeni tipli yoxlama-ölçmə materiallarının hazırlanmasına ehtiyac yaranmışdır. Belə ki, ümumi orta təhsil səviyyəsi üzrə buraxılış imtahanının proqramına xarici dillər (rus, ingilis, alman, fransız, fars və ərəb dilləri) əlavə olunduğundan bu dillər üzrə ilk dəfə imtahanda istifadə edilmək üçün həm oxu, həm də dinləmə mətnləri üzrə test bankının yaradılmasına başlanılmışdır.

3. Tam orta təhsil səviyyəsi üzrə isə buraxılış imtahanının proqramına daxil olan fənlər üzrə qapalı tipli test tapşırıqları mövcud olsa da, ilk dəfə tədris dilləri (Azərbaycan və rus) üzrə yeni modelə uyğun ontapşırıqlı bədii və publisistik mətnlərdən ibarət test bankı yaradılmışdır. Bundan başqa, tam orta təhsil səviyyəsi üzrə buraxılış imtahanının proqramına daxil olan xarici dillər (rus, ingilis, alman, fransız, fars və ərəb dilləri) üzrə oxu və dinləmə mətnlərindən ibarət test bankının hazırlanmasına başlanılmışdır. Buraxılış imtahanına daxil olan riyaziyyat fənni üzrə mövcud test bankında qapalı və ənənəvi açıq tipli test tapşırıqları kifayət qədər olsa da, tam orta təhsil səviyyəsi üzrə yazmağı tələb edən test tapşırıqlarının tərtibinə ilk dəfə başlanılmışdır.

4. Tədrisi Azərbaycan dilindən fərqli dillərdə həyata keçirilən ümumtəhsil müəssisələrini bitirən şagirdlər üçün keçirilən Azərbaycan dili imtahanının modeli dəyişdiyindən cari ildə həmin imtahan modelinə uyğun olaraq test bankı yenidən formalaşdırılmışdır.

5. Qəbul imtahanının proqramına daxil olan hər bir fənn üzrə situasiya, mətn və mənbə əsasında yazmağı tələb edən tapşırıqlardan ilk dəfə məhz cari ildəki qəbul imtahanlarında istifadə edilməyə başlanılmışdır. Həmin model üzrə də tapşırıqların hazırlanması ilə bağlı işlər davam edir. Ümumən istər yekun qiymətləndirmə, istərsə də qəbul imtahanlarının proqramına daxil olan fənlər üzrə şagirdlərin və abituriyentlərin bilik və bacarıqlarını daha keyfiyyətli şəkildə qiymətləndirmək üçün test banklarının (qapalı, ənənəvi açıq və yazmağı tələb edən olmaqla) yeni tipli test tapşırıqları ilə zənginləşdirilməsi prosesi sektorun dövri fəaliyyətinin əsas istiqamətini təşkil edir.

6. Qəbul və sınaq imtahanları başa çatdıqdan sonra abituriyentlərin imtahanlarda yol verdikləri yanlışlıqları asanlıqla müəyyən etmələri, eləcə də test tapşırıqlarının məzmunu ilə bağlı onları maraqlandıran suallara aydınlıq gətirilməsi üçün bu imtahanlarda istifadə edilən bütün test tapşırıqlarının izahları (hər tapşırığın aid olduğu mövzu və sinif göstərilməklə) DİM-in rəsmi internet saytında yerləşdirilərək abituriyentlərin istifadəsinə təqdim edilir.

7. Məlum olduğu kimi, test topluları həm qəbul imtahanına hazırlaşan abituriyentlər, həm də şagirdlər tərəfindən ehtiyac duyulan vəsaitdir. Cari ilin ikinci yarısından etibarən Azərbaycan dili, rus dili, ədəbiyyat, riyaziyyat, fizika, kimya, biologiya, tarix, coğrafiya və ingilis dili fənləri üzrə test toplularının nəşrə hazırlanması üçün, ilk növbədə, yeni təhsil və qəbul proqramına, eyni zamanda dərsliklərə uyğun olmayan test tapşırıqları toplulardan çıxarılmış, düzəlişlərə ehtiyac olan

minlərlə test tapşırığında düzəlişlər edilmiş və hər fənn üzrə toplulara ümumi test tapşırıqlarının təqribən 10%-i həcmində yeni tipli test tapşırıqları daxil edilmişdir. Ədəbiyyat fənni üzrə test toplusunun təqribən 70%-i, ingilis dili fənni üzrə isə 40%-i yeni tipli tapşırıqlardan ibarət olmuşdur. Bütövlükdə, test toplularına 5000-ə yaxın müxtəlif növ yeni tapşırıq daxil edilmişdir.

**Dövlət qulluğu üzrə sektor**

Sektor tərəfindən cari il ərzində əsasən aşağıdakı işlər görülmüşdür:

1. Azərbaycan Respublikasında dövlət qulluğunun inkişafına dair 2019 – 2025-ci illər üçün Strategiyanın tələblərindən irəli gələn səriştə (kompetensiya) modelinə keçid məqsədilə aşağıda göstərilən işlər həyata keçirilmişdir:

- I – V kateqoriya dövlət orqanlarının strukturu araşdırılaraq vəzifə qrupları və vəzifə profilləri hazırlanmışdır;
- Dövlət orqanlarının vəzifə istiqamətlərinin (şöbə, sektor, regional qurumlar) vəzifə profilinə uyğunluğu yoxlanılmışdır;
- Vəzifə qrupları və vəzifə profilləri barədə dövlət orqanlarından rəsmi rəy və təkliflər alınmış, alınmış rəy və təkliflər sistemləşdirilmiş və bəzi təkliflər nəzərə alınmışdır.
- Peşə-ixtisas biliklərinin yoxlanılması məqsədilə vəzifə profillərinə uyğun proqramların layihəsi və bəzi profillər üzrə tapşırıqlar nümunəsi hazırlanmışdır.

2. Dövlət qulluğuna qəbul üzrə müsabiqənin test imtahanı mərhələsinin müvafiq sahələr üzrə test bankları mütəmadi olaraq təftiş olunmuş, yeni test tapşırıqları hazırlanaraq banka daxil edilmiş və bəzi dəyişikliklər nəzərə alınmaqla formalaşdırılmışdır. Eyni zamanda səriştə modelinə keçid məqsədilə situasiya tipli (kazus) tapşırıqlar hazırlanaraq banka daxil edilmiş və il ərzində keçirilən test imtahanlarında bu tip tapşırıqlardan istifadə olunmuşdur.

3. Dövlət qulluğunun xüsusi növü olan dövlət orqanlarına (vəkilliyə, hakimliyə, miqrasiya orqanlarına) işə qəbulla bağlı keçirilən test imtahanları üçün müvafiq bilik sahələri üzrə test tapşırıqları hazırlanaraq test bankları formalaşdırılmışdır. “Yüksəliş” müsabiqəsinin imtahanlarında istifadə olunacaq tapşırıqların hazırlanmasında sektor əməkdaşları yaxından iştirak etmişlər.

4. Mərkəz tərəfindən il ərzində dövlət qulluğuna qəbulla bağlı 12 test imtahanı və xüsusi növ dövlət orqanlarına işə qəbulla bağlı 9 test imtahanı uğurla keçirilmiş və sektorun əməkdaşları bu imtahanlarla bağlı təşkil olunmuş qapalı rejimdə (ekspertizanın təşkili və ekspert qismində) iştirak etmişdir.

5. Dövlət qulluğuna qəbulla bağlı keçirilən elektron sınaq imtahanlarında və otk.az internet saytında yeni test tapşırıqlarından istifadə üçün tapşırıqların ekspertizası təşkil olunmuşdur.

6. Sektorun əməkdaşları dövlət qulluğuna qəbulla bağlı təşkil olunan müsahibələrdə DİM-in nümayəndəsi olaraq mütəmadi (hər bir əməkdaş həftədə iki dəfədən az olmayaraq) iştirak etmişlər.

7. Dövlət qulluğuna qəbul üzrə müsabiqəyə hazırlaşanlar üçün test imtahanı modelinə uyğun “500 test tapşırığı” adlı test toplusu hazırlanmış və Mərkəz tərəfindən ayrı-ayrı vaxtlarda iki dəfə nəşri həyata keçirilmişdir.

8. 2018-ci ilin dekabr ayında nəşr olunmuş “Dövlət qulluğuna qəbul üzrə müsabiqəyə hazırlaşanlar üçün Təlimat” adlı metodik vəsaitin 2019-cu ildə müəyyən redaktələr ilə təkrar nəşri həyata keçirilmişdir.

9. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 22 may tarixli 237 nömrəli Qərarı ilə təsdiq edilmiş “Peşəkar mühasib sertifikatının verilməsi prosesinin təşkili, imtahanların keçirilməsi və peşəkar mühasib sertifikatı almış şəxslərin dövlət reyestrinin aparılması Qaydaları” ilə peşəkar mühasib sertifikatının verilməsi prosesinin təşkili və imtahanların keçirilməsi DİM-ə həvalə olunduğuna görə qərarın icrasını təmin etmək məqsədi ilə hazırlıq işlərinə başlanılmışdır. DİM tərəfindən digər qurumlarla birgə İctimai Sektor üçün Mühasibat Uçotunun Beynəlxalq Standartları üzrə I və II səviyyə peşəkar mühasib sertifikatının verilməsi üçün keçiriləcək imtahanın 1-ci mərhələsinin proqramı hazırlanmışdır. Sektor tərəfindən proqram əsasında test bankını

formalaşdırmaq məqsədilə bankın bölmələri yaradılmış, ekspert qruplarının formalaşdırılmasına başlanılmış, ekspertlərə test tapşırıqlarının tərtibi barədə müvafiq təlimat verilmiş və onlar tərəfindən tərtib edilmiş test nümunələri təhlil olunmuş və hazırda bununla əlaqədar müvafiq təşkilati işlər görülür.

10. Cari ildə "Dövlət qulluğu" jurnalının 2 nömrəsi nəşr olunmuş və hazırda ilin yekunu üzrə növbəti nömrəyə daxil ediləcək materiallar hazırlanır.

11. Sektorun əməkdaşları DİM tərəfindən təşkil olunmuş beynəlxalq tədbirlərdə fəal iştirak etmişlər. Sektorun Təhsilin Qiymətləndirilməsi üzrə Beynəlxalq Assosiasiyanın 45-ci illik konfransının müvafiq sessiyasında dövlət qulluğu məsələləri ilə bağlı ingilis dilində məruzəsi dinlənilmişdir.

**Qabiliyyət imtahanları üzrə sektor**

1. 2019-cu ildə qabiliyyət imtahanları 2 iyul tarixindən 4 avqust tarixinədək Bakı şəhəri ilə yanaşı, respublikanın bütün bölgələrində – Şəki, Lənkəran, Göyçay, Şirvan, Gəncə, Naxçıvan, Bərdə və Şəmkirdə keçirilmişdir. Qabiliyyət imtahanları üzrə sektorun təşkilatçılığı ilə orta ixtisas və ali təhsil müəssisələrinə qəbul olmaq istəyən 25000 abituriyent üçün qabiliyyət imtahanı keçirilmişdır. Ali təhsil müəssisələrinə keçirilmiş qəbul imtahanları çərçivəsində 18000-dən çox abituriyent üçün qabiliyyət imtahanı təşkil edilmişdir. İmtahanların həm məzmun, həm də təşkilatı baxımdan səmərəli həyata keçirilməsi üçün ümumilikdə 76 komissiya fəaliyyət göstərmişdir. İmtahanlar 23 xüsusi qabiliyyət tələb edən ixtisas üzrə aparılmışdır. Bu ixtisaslar əsasən V ixtisas qrupuna aid olsalar da, digər ixtisas qruplarına aid olanlar da (III ixtisas qrupuna aid islamşünaslıq və jurnalistika, I ixtisas qrupuna aid memarlıq ixtisası) vardır

2. 2019 cu ildə ali təhsil müəssisələrinin xüsusi qabiliyyət tələb edən ixtisaslarına qəbul olmaq üçün qabiliyyət imtahanlarında, əlavə olaraq, 862 subbakalavr iştirak etmiş, onlardan 145-i xüsusi qabiliyyət tələb edən ixtisaslara qəbul olmuşdur.

3. Ali təhsilin magistratura səviyyəsinə Təsviri sənət, Musiqi, Teatr, kino və xoreoqrafiya sənətləri istiqamətləri üzrə qabiliyyət imtahanları keçirilmişdir. 68, 69 və 70 saylı proqramlar üzrə imtahan verən 130 bakalavr ali təhsil müəssisələrinin magistratura səviyyəsinə aid xüsusi qabiliyyət tələb edən 17 ixtisaslaşmaya qəbul olmuşdur.

4. Qabiliyyət imtahanları üzrə sektor tam orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinin xüsusi qabiliyyət tələb edən ixtisasları üçün keçirilən qəbul imtahanları çərçivəsində 3661 abituriyent üçün qabiliyyət imtahanı təşkil etmişdir.

DİM 2019-cu ildə orta ixtisas təhsil imüəssisələrinin xüsusi qabiliyyət tələb edən musiqi sənəti istiqamətinin ixtisaslarına qəbul olmaq istəyənlər üçün musiqi nəzəriyyəsi və solfecio fənni üzrə test imtahanı keçirmişdir. 333 abituriyent üçün 14 komissiyada imtahan təşkil edilmiş və onlardan 177-si qəbul olmuşdur.

Qabiliyyət imtahanları üzrə sektor ümumi orta təhsil bazasından imtahanlarda iştirak etmək istəyən 3105 abituriyentin yaradıcılıq qabiliyyətinin yoxlanılması üçün imtahanların keçirilməsini təşkil etmişdir.

5. İmtahanın məzmunu ilə bağlı yeniliklər

- 2019-cu ilin əvvəlində Dizayn ixtisası üzrə təhsil almaq istəyən abituriyentlərin daha əlverişli qəbul şərtləri ilə imtahan vermələri üçün mövcud iki komissiya vahid komissiyada birləşdirilmişdir. Kompozisiya imtahanının məzmunu dəyişdirilmişdir.
- 2019-cu ildə həyata keçirilən digər bir yenilik isə "Abituriyent" jurnalının xüsusi buraxılışı olan "Xüsusi qabiliyyət imtahanları" jurnalının ilk dəfə çap edilməsidir. Jurnalın 2 sayı nəşr edilmişdir.
- Musiqi sənəti üzrə keçirilən imtahanlarda ilk dəfə olaraq dinləmə suallarından istifadə edilmişdir. Musiqi təhsili üzrə sənəd tələb olunmayan ixtisaslara qəbul üçün musiqi

nəzəriyyəsi və solfecio imtahanının elektron imtahan kimi keçirilməsinə hazırlıq üçün dinləmə tapşırıqları ilə yanaşı iki variantda kitabça hazırlanmışdır.

- Qabiliyyət imtahanlarında abituriyentlərin yaradıcılıq qabiliyyətinin qiymətləndirilməsində şəffalığın təmin edilməsi məqsədilə xüsusi qabiliyyət imtahanlarında ekspert kimi iştirak edən ali və orta ixtisas təhsili müəssisələrinin akademik heyətinin vahid reyestrini yaratmaq üçün hazırlıqlara başlanılmışdır.
- Şəffaflığın təmin edilməsi məqsədilə Naxçıvan Muxtar Respublikasında keçirilən qabiliyyət imtahanlarında ilk dəfə olaraq abituriyentlərin Təsviri sənət istiqaməti üzrə yerinə yetirdikləri tapşırıqların fotoşəkli DİM-in rəsmi internet saytında yerləşdirilmişdir.

6. Təşkilati yeniliklər

Orta ixtisas təhsili müəssisələrinə qəbul üçün keçirilmiş Musiqi nəzəriyyəsi və solfecio imtahanı bütün respublika üçün vahid imtahan şəklində həyata keçirilmişdir.